Ədəbiyyat qəzeti.- 2024.- 14 sentyabr, №35.- S.11.



# Yubilyara...

***Azərbaycan Respublikasının 1-ci dərəcəli Dövlət müşaviri, Əməkdar incəsənət xadimi***

***Hidayət Xuduş oğlu Orucova***

**Hörmətli Hidayət müəllim!**

Dağıstan Respublikası Yazıçılar İttifaqının İdarə Heyəti Sizi 80 illik yubileyiniz münasibətilə təbrik edir. Qoy bu şərəfli tarix Sizin böyük həyat yolunuzda daha bir əhəmiyyətli mərhələ olsun!

Sizin tərcümeyi-halınız doğma diyara xidmətin parlaq nümunəsidir. Xidmət kitabınızda bir sıra yüksək dövlət vəzifələri və məqamları vardır ki, bunların hər birini öz xeyirli quruculuğunuz və pozitiv enerjinizlə zənginləşdirmisiniz. Azərbaycan Prezidentinin millətlərarası münasibətlər üzrə müşaviri, Azərbaycan Respublikasının milli siyasət məsələləri üzrə Dövlət müşaviri, AR Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin sədri olduğunuz zaman Azərbaycanla Rusiya Federasiyası və əlbəttə ki, ölkənizin yaxın qonşusu kimi Dağıstan Respublikası ilə dövlətlərarası münasibətlərin və dostluğun möhkəmləndirilməsi işinə böyük töhfələr vermisiniz. Siz fəxri qonaq kimi dəfələrlə Dağıstanda olmusunuz və hər bir gəlişiniz əhəmiyyətli tədbirlərlə bağlı olduğundan respublika üçün böyük hadisəyə çevrilmişdir.

Əməyinizə və bizim siyasət və ədəbiyyatımızın ağsaqqalları Məhəmmədəli Məhəmmədov və Rəsul Həmzətovla çoxillik dostluğunuza görə Dağıstan Sizə minnətdardır. Siyasətçi və yazıçı olaraq xalqların və ölkələrin yaxınlaşmasında mədəniyyətin əhəmiyyətini həmişə yaxşı anlatmısınız.

Sizə Qafqaz uzunömürlülüyü, yaxınlarınızın və dostlarınızın əhatəsində davamlı xoşbəxt illər arzu edirik.

**Hörmətlə,**
***Marina ƏHMƏDOVA***
***Dağıstan Respublikası Yazıçılar İttifaqı İdarə Heyətinin sədri, Dağıstanın xalq şairi.***